*Zəngilanın işğalından 23 il keçir*

# Mətin, dəyanətli oğullar yurdudur Zəngilan

Respublikamızın cənub-şərqində yerləşən Zəngilan rayonu azərbaycanlıların əzəli və daimi yaşayış yurdu olub. Gözəl təbiətə, səfalı yaylaqlara, zəhmətkeş, mehriban, dövlətə, dövlətçiliyə sədaqətli insanlara malik olan bu qədim diyar nankor qonşularımız ermənilərin gözünə qara tikan olub batırdı. Həmişə özgə torpaqlarından pay uman ermənilər Qarabağ uğrunda gedən savaşlarda–1993-cü ilin oktyabr ayının 29-da Zəngilan rayonunu işğal etdi. Düz 23 ildir ki, təbii çinar meşəsinin sahəsinə görə planetdə ikinci, Avropada birinci olan bu məkan ermənilərin tapdağı altındadır. Lakin zəngilanlılar sabaha ümidlə yaşayırlar. İnanırlar ki, tez-gec Zəngilan erməni işğalından azad olacaq, öz dədə-baba yurd yerlərinə qayıdacaqlar.

Zəngilan rayonunun ərazisi 707 kv.km, əhalisi 42,7 min nəfərdir. Şimaldan Qubadlı, şərqdən Cəbrayıl rayonu, cənubdan Araz çayı boyunca İran İslam Respublikası, qərbdən isə Ermənistanın Mehri və Qafan rayonları ilə həmsərhəddir.

Orta və alçaq dağ sahələrindən ibarət olan bu rayonun ərazisində bir sıra faydalı qazıntılar–tikinti daşı, qızıl yatağı, qara mərmər yatağı, əhəng xammalı, susuzlaşdırılmış soda üçün əhəng daşı vardır. Rayonun ərazisindən 4 cay keçir: Araz, Oxçuçay, Həkəri, Bəsitçay. Ərazidə 21 dəmiryol müəssisəsi və 6 dəmir yol vağzalı fəaliyyət göstərirdi.

Zəngilan respublikanın dağətəyi ərazisində yerləşməklə iqtisadi cəhətdən əsasən kənd təsərrüfatı istiqamətli olmuş, rayonda 29 kolxoz-sovxoz, 1 arıçılıq təsərrüfatı, 4 koperativ və 3 kəndli-fermer təsərrüfatı fəaliyyət göstərmişdir. Ermənilər Zəngilanı işğal edəndə buranın təhsil, səhiyyə, mədəniyyət müəssisələri, tarixi abidələri viran edildi, əhalinin var-dövləti talan olundu, fərdi evlər yandırıldı. Sağ qalan əhalisi qaçqın və köçkün düşdü. Beləliklə, yeraltı qızıl, mərmər yataqlarına, yerüstü münbit torpaqlarına, əsrarəngiz təbiətinə görə yaxın keçmişdə adlandığı kimi, həqiqətən «qızıl Zəngilan» bu gün bizdən imdad gözləyir.

Aramsız düşmən hücumlarına mərdliklə sinə gərərək iki ay mühasirədə qalan, bölgəni sonuncu olaraq döyüşə-döyüşə tərk edən mətin, dəyanətli oğullar yurdudur Zəngilan.

✍ **Aslan CƏLALOĞLU.**

# Kənd yolu asfaltlaşdırılır

Son illərdə rayonumuzun şəhər,qəsəbə və kəndlərinin siması başdan-başa dəyişməkdədir. Sürətli inkişafın sədası nəinki respublikamıza, hətta onun sərhədlərindən kənarlara da yayılmaqdadır. Bu uğurlara geniş yol layihələr həyata keçirilir. Belə layihələrdən biri də Daşca kənd yolunun asfaltlaşdırılmasıdır. Daşca kəndini rayon mərkəzi ilə birləşdirən Daşca–Zarağan yoluna asfalt döşənməsi işləri hazırda davam edir. Kənd



açan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü islahatlardır. Digər tərəfdən əhalinin rifahının yaxşılaşdırılması da cənab Prezidentin daim diqqət mərkəzindədir. Rayonumuzun nəinki 3 qəsəbəsinə, hətta aran və ucqar dağ kəndlərinə çəkilən asfalt yollar, salınan körpülər bu diqqət və qayğının təzahürüdür.

Deyirlər, iqtisadiyyatın inkişafı yoldan başlanır. Bu istiqamətdə ölkə ərazisində müxtəlif sakinləri bu qayğıya görə ölkə rəhbərliyinə, rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə, «Azəryol» Açıq Səhmdar Cəmiyyətinin 10 saylı yol istismar sahəsinin rəisi Naməddin Qədirova, yol çəkilişində əməyi olan fəhlələrdən İlqar Mütəllibova, Allahverdi Təhməzova, Qismət Mustafayevə, Məzahir Nəzirova və digərlərinə dərin minnətdarlıqlarını bildirirlər.

✍ **Şəhriyar ƏSƏDOV,**
**Daşca kəndi.**
📷 **S. Umuyev.**

# Qəbələdə Qafqazın ən qədim mədəni abidəsi tapılmışdır

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Xalkolit və Tunc dövrlərinə (e.ə. 4-3-cü minilliklər) aid arxeoloji abidələrin tədqiqi ilə məşğul olan "Qədim Qəbələ" ekspedisiyası Qəbələ rayonu ərazisindəki araşdırmalarını davam etdirib.



İnstitutun elmi işlər üzrə direktor müavini Nəcəf Müseyiblinin rəhbərlik etdiyi bu ekspedisiyanın əsas tədqiqat obyekti əvvəlki illərdə olduğu kimi bu il də Qəbələ Beynəlxalq Aeroportu ərazisindəki Leylatəpə arxeoloji mədəniyyətinə aid Qalayeri qədim yaşayış məskəni olub. Xalkolit dövrünə - e.ə. 4-cü minilliyin birinci yarısına aid bu abidədə aparılan qazıntılar nəticəsində minlərlə maddi mədəniyyət qalıqları - gildən, daşdan, metaldan və sümükdən hazırlanmış əmək alətləri aşkar olunub.

Müəyyən edilib ki, Qalayerində müxtəlif tip saxsı qablar qədim Yaxın Şərq mədəniyyətlərində olduğu kimi dulus çarxında hazırlanıb. Abidədə eyni zamanda o dövrdə istehsalda ən yüksək texnoloji üsul hesab edilən dulus çarxının hissələri də aşkar olunub. Arxeoloji ekspedisiya mədəni təbəqənin altında, xam torpaqda qazılmış katakomba tipli qəbir abidəsini aşkar edərək, elmi çevrələrdə sensasiya doğuracaq kəşfə də imza atıb.

Arxeoloqların fikrinə görə 6 min il əvvələ aid bu qəbir Qafqazda və Avropada katakomba tipli ən qədim qəbir abidəsidir.

Ekspedisiya rayonun Dizaxlı kəndi ərazisində, Qaraçayın hündür sağ sahilində yerləşən Erkən Tunc dövrünə aid nekropolda da başladığı tədqiqat işlərini davam etdirib və qəbirdə dəfn olunmuş insan skeleti ilə yanaşı metaldan və müxtəlif minerallardan hazırlanmış 100-dən artıq bəzək əşyaları, 30-a yaxın saxsı qablar aşkara çıxarmışdır.

Buradakı məzarlardan aşkar edilmiş arxeoloji materiallar, onların digər abidələrdən olan tapıntılarla müqayisəli təhlili, Kür-Araz mədəni tarixi birliyi çərçivəsində e.ə. 3-cü minillikdə Şirvan, Quba-Xaçmaz bölgələrini, Cənubi Dağıstanı, xüsusilə də Dərbənd ətrafı əraziləri əhatə etmiş Şərqi Qafqaz mədəniyyətini və onun səciyyəvi xüsusiyyətlərini müəyyən etməyə geniş imkan yaratmışdır.

*"Qəbələ".*

# Azərbaycanın xalq sənəti inciləri

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasında üç qiymətli xalı nümayiş etdirilir. XIX əsrin nümunəsi olan "Balıq" adlı Qarabağ xalısı, XIX əsrin Quba-Şirvan xalçaları qrupuna daxil olan "Ləmpə" və "Zeybə" adlı xalçalar Azərbaycanın unikal və qədim xalçaçılıq sənətindən xəbər verir. Bu nümunələr ən qiymətli eksponat kimi qorunmaqla bərabər daimi sərgidə göz oxşamaqdadır. Dünyanın müxtəlif ölkələrindən gələn turistlər muzeyimizi ziyarət edir, ekspozisiyada nümayiş olunan bu xalılar qarşısında heyranlıqlarını gizlədə bilmirlər.



Zəngin ekspozisiyaya malik muzeyimizin etnoqrafiya bölməsinə gözəllik qatan, zənginlik bəxş edən Azərbaycan xalq sənəti incilərindən olan bu xalçalar tariximizin böyük bir hissəsi kimi qorunur. Qorunur ki, tarixi qədim olan bu sənət, bu sənətin nümunələri hər zaman xalqımızın ulu keçmişə malik olmasının bir daha təsdiqi, zəhmətkeş analarımızın qızıl əllərinin yadigarı, Azərbaycan xalq sənətinin inciləridir.

# Tədbirlər daha da gücləndirilməlidir

(Əvvəli 5-ci səhifədə).

Bu məqsədlə qaz xətlərində təmir işlərinin aparıldığını, yeni sayğaclar quraşdırıldığını qaz tənzimləyicilərinin yeniləndiyini, həmçinin elektrik enerjisinin dayanıqlığını artırmaq məqsədilə 320 ədəd istismara yararsız dayaqların dəyişdirildiyini, 6 kilometrdən artıq yeni hava xəttinin çəkildiyini, elektrik verilişi xətlərində təmir-bərpa işlərinin görüldüyünü,naqillərə təhlükə törədən ağacların budandığını qeyd etmişlər.

Qəbələ şəhərinin «Almalıq» yaşayış massivində və ümumilikdə 7 küçəsində, Nic qəsəbəsində, Bunud, Nohurqışlaq və Daşca kəndlərində 13 transformator yarımstansiyası quraşdırılmışdır. 12,8 kilometr məsafədə isə 0,4 kv-luq yararsız naqillər özünü daşıyan izolyasiyalı naqil, 25 ədəd transformator yarımstansiyasının çıxışında zədələnmiş kabellər yenisi ilə əvəz edilmişdir.

Rayonda fəaliyyət göstərən qaz xidməti sahəsi hazırda öz fəaliyyətini qış fəslində əhalinin fasiləsiz təbii qazla təmin edilməsi istiqamətində qurmuşdur. Qışa hazırlıqla əlaqədar bəzi qaz kəmərləri borudaxili səthində yığılıb qalan çöküntülərdən təmizlənmişdir. Cari ilin ötən 9 ayı ərzində 3.424 yeni abonent təbii qazla təchiz olunmuş, Bum, Nic qəsəbələrinə, Qəmərvan, Mirzəbəyli və Həmzəli kəndlərinə qaz xətləri çəkilmişdir. Həmin qaz xətlərinin çəkilişi zamanı qəsəbə və kəndlərdə bir neçə qaz tənzimləyici şkaf və müxtəlif ölçülü siyirmələr, eləcə də mövcud qaz təsərrüfatında 7 ədəd müasir tipli yeni təzyiq tənzimləyiciləri quraşdırılmışdır.

Su-kanal idarəsi tərəfindən də müəyyən işlər görülüb. Belə ki, su mənbələrində yerləşən ambarlar lil və qumdan təmizlənmiş, şəhərin bəzi küçələrində plastik və dəmir su boruları dəyişdirilmiş, nasaz xətlər isə təmir edilmişdir.

Qış mövsümündə əsas ağırlıq yol işçilərinin üzərinə düşür. Odur ki, bu müəssisə yerli və respublika əhəmiyyətli avtomobil yollarında təmir işlərinin vaxtınlda başa çatdırmalı, eniş və yoxuşu çox olan yollar üçün qum və duz ehtiyatı tədarük etməlidirlər.

Göründüyü kimi, qışın gətirəcəyi çətinliklərin aradan qaldırılması üçün indidən rayonda mühüm işlər görülür, aşkar olunan nöqsanların həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Lakin son günlərin hava şıltaqlığı göstərir ki, bu sahədə həyata keçirilən tədbirlər daha da gücləndirilməlidir.

✍ **Aslan CƏLİLOV.**